Təlim kursları davam edir

Ölkə Prezidenti İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" sürətlə inkişaf edən ölkəmizin uğurlu nailiyyətidir. Cənab Prezident strategiyanın əsas məqsədlərindən birini belə müəyyənləşdirib: "Maddi kapitalı insan kapitalına çevirmək". Bu başlıca məqsədi həyata keçirmək üçün nəzərdə tutulan əsas istiqamətlərdən biri bütün təhsil pillələri üzrə kurikulumların təmin olunmasıdır.

Artıq yeddinci ildir ki, ölkəmizin təhsil sistemində kurikulum islahatı keçirilir. Həmin illər ərzində bu sahədə xeyli təcrübə toplanmışdır. Üçüncü ildir ki, təkcə ibtidai siniflər üzrə də treninqlər keçirilir. Son iki ildə I-VI siniflərdə işləyən 1200-dən artıq müəllim Təhsil Nazirliyi tərəfindən rayonda təşkil olunan təlim kurslarının iştirakçısı olmuş və müvafiq sertifikatlar almışlar.

Əvvəlki illərdə olduğu kimi bu il də avqust ayından etibarən Təhsil Nazirliyinin xətti ilə təhsillə əlaqədar müxtəlif təşkilatlar tərəfindən müvafiq qrafik üzrə 100 günlük treninqlər keçirilir. Nazirliyin təlimatına əsasən bu məşğələlərin keçirilməsi üçün lazımi şərait yaradılmışdır. Təlimlər şəhər 4 saylı tam orta məktəbdə təşkil olunub. Hər bir otaq rayon təhsil şöbəsi tərəfindən noutbook və proyektorlarla təmin edilmiş, iştirakçı müəllimlərin siyahısı dəqiqləşdirilərək təlimçi müəllimlərə təqdim edilmişdir.

Bu günə qədər Azərbaycan dili və ədəbiyyat, xarici dil, ibtidai təhsil və kimya fənləri üzrə təlimlər başa çatmış, 200 nəfər müəllim təlimlərin nəticəsinə görə müvafiq sertifikatlar almışdır.

Bu təlimlərdə müəllimlər kurikulumun əsaslarını, dərslərin planlaşdırılmasını, məktəbdaxili qiymətləndirmənin prinsiplərini öyrənir, öyrəndiklərini hazırladıqları dərslərin təqdimatında nümayış etdirirlər. Qarşlıqlı dinləmələrdən sonra müəllimlər təlimçi müəllimin iştirakı ilə müzakirələr keçirir, mövcud nöqsanların aradan qaldırılması yollarını öyrənirlər. Bu məşğələlərdə təlim texnologiyalarından istifadə edilməsi xüsusi rol oynayır.

Qeyd edək ki, müəllimlərimiz məşğələlərdə fəallıqları ilə seçilmişlər.

Hal-hazırda "Fiziki tərbiyə", "İnformatika", "Texnologiya" fənləri üzrə təlimlər davam edir.

Təlimlər sentyabr ayına qədər davam edəcəkdir.

Arifə BAYRAMOVA,
Qəbələ RTŞ
metodkabinetinin müdiri.
Foto S. Umuyevindir.

Xeyirxah təşəbbüs

QHT-lərin Qəbələ Regional Resurs və Təlim Mərkəzi ilə Qəbələdə fəaliyyət göstərən Qafqaz Sport Hotel, Qafqaz Resort Hotel, Qafqaz Riverside Hotel, Qafqaz Karvansaray Hotel, Qafqaz Thermol Hotel & SPA arasında birgə əməkdaşlıq çərçivəsində Resurs Mərkəzinin imkanlarından yararlanaraq Qafqaz Resort Hoteldə hotellərin şöbə rəhbərləri və müavinləri üçün həftədə üç dəfə olmaqla altı ay müddətində davam edəcək növbəti ingilis dili kurslarına start verilib.

Ilk öncə Qəbələ Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov hotellərin əməkdaşlarını salamladı, daha sonra kursun proqramı haqqında geniş məlumat verdi və həmçinin qeyd etdi ki, Hotel personalının ingilis dili bilmə bacarıqlarının inkişafını nəzərdə tutan bu kurslar personalın ingilis dili bacarıqlarını inkişaf etdirməklə yanaşı, inanırıq ki, Qəbələnin sürətlə inkişaf edən turizminə də öz müsbət təsirini göstərəcəkdir.

Sonra hotel personalının fikirləri dinlənildi və onları maraqlandıran suallar cavablandırıldı. Daha sonra kurs öz işinə başladı.

"Qəbələ".

Qəbələdə antik dövrə aid maddi-mədəniyyət nümunələri aşkar edilib

Qədim Qəbələ ərazisində aparılan genişmiqyaslı arxeoloji tədqiqatlar, bərpa-konservasiya işləri zamanı antik dövrə aid maddi-mədəniyyət nümunələri aşkar edilib. Tədqiqatlar Azərbaycan-Koreya Beynəlxalq Arxeoloji Ekspedisiyası tərəfindən keçirilir. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları bu günlərdə Qəbələnin Soltannuxa kəndində antik dövrə aid qəbiristanlıq aşkarlayıblar. Qəbiristanlıqda olan məzarların ən az 1800-1900 yaşı olduğu güman edilir. İlkin kəşfiyyat işləri zamanı ərazidən 7 qəbir aşkarlanıb.

Qəbirlər zənginliyinə və xüsusi dəfn adətlərinə görə seçilirlər. Diqqət çəkən məqamlardan biri ölmüş insanın bükülü vəziyyətdə məzara qoyularaq ətrafına 40 saxsı qabın düzülməsidir. Qablarla yanaşı, qəbirə dörd bütöv qoç qoyulub. Skeletin yanında nizə, bıçaq, oraq, üzərində xeyli sayda bəzək əşyaları və muncuq düzümləri var. Qeyd olunan qəbirdə ikinci insan skeletinə də təsadüf olunur. Ehtimal ki, bu, varlı təbəqəni təmsil edən mərhumun xidmətçisi olub.

Qəbiristanlıqda digər zəngin qəbirlərə də təsadüf olunub. Bir qəbirdə üzbəüz dəfn olunmuş iki skelet, digər qəbirdə küpün içərisində dəfn olunmuş iki insan skeleti aşkarlanıb. Qəbiristanlıqda aparılan arxeoloji tədqiqatların nəticələri və aşkar edilən qəbirlər olduğu kimi Qəbələ Dövlət Tarix Bədii Qoruğunun muzeyində nümayiş etdirilməsi nəzərdə tutulur.

Rayon tarix-diyarşünaslıq muzeyində görüş

14 avqust 2014-cü ildə Prezident təqaüdçüsü Kamil Məmmədovla Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində görüş keçirilmişdir. Tədbiri Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi, Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyinin direktoru Xalis Məmmədov açmışdır. Muzeyin kiçik elmi işçisi İlhamə Seyidova məlumat vermişdir ki, Kamil Seyid oğlu Məmmədov 1931-ci ildə Qutqaşın kəndində anadan olmuşdur. 1951-ci ildə burada orta məktəbi qızıl medalla bitirərək Leninqrad Texnologiya İnstitutuna daxil olmuşdur. 1956-1957-ci illərdə Ərzaq Sənayesi Nazirliyində baş mexanik, idarə rəisinin müavini, 1958-1962-ci illərdə texniki şöbə rəisi, 1963-1966-cı illərdə Bakı Biskivit Fabrikində mühəndis, 1966-1969-cu illərdə Azərbaycan SSR Nazirlər Sovetində şöbə rəisinin müavini, 1969-1970-ci illərdə Ət-Süd Sənayesi nazirinin müavini, 1971-1972-ci illərdə Yeyinti Sənayesi nazirinin müavini, sonra isə 8 il nazir vəzifələrində çalışmışdır. 1994-1997-ci illərdə Taxıl Məhsulları Dövlət Şirkətinin Prezidenti vəzifəsində işləmişdir. 3 çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, Azərbaycan KP MK-nın üzvü olmuş, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmiş, Əməkdar Mühəndis fəxri adı almış və Prezident təqaüdçüsüdür.

Kamil Məmmədov nazir olduğu müddətdə Azərbaycanın rayonlarında çörək zavodları, tütün-fermantasiya zavodları, çay-çəkici, qənnadı-makaron fabrikləri, Naxçıvan mineral su müəssisələri istifadəyə verilmişdir. Qutqaşın (indiki Qəbələ) rayonunda respublikamızda ən iri tütün fermantasiya zavodunu, 52 mənzillik yaşayış evinin, 140 yerlik uşaq baxcasının, stadionun, istirahət mərkəzinin, uşaq xəstəxanasının tikilməsinin təşəbbüskarı olmuşdur.

Kamil Məmmədov görüşdə ümummilli liderimiz Heydər Əliyev haqqında xatirələrini də danışmışdır:

—Yaxşı yadımdadır. 1992-ci ilin qışında "İqtisadi blokadada olan Naxçıvana getmişdim. O zaman Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri və uzun illər tabeliyində şirkət prezidenti vəzifəsində işlədiyim Heydər Əliyevlə görüşdüm. Naxçıvan ağır vəziyyətdə idi. Əmin oldum ki, möhkəm iradəsi olan bu insan üçün çətin heç bir şey yoxdur. O dahi şəxsiyyət, iradəsi tükənməz bir insan idi.

Onun 1969-cu ildə xalq təsərrüfatı bərbad vəziyyətə düşmüş respublika rəhbərliyinə gəlişini xatırlayıram. Lakin fikirləşdim ki, ölkələr tarixində xalqı səfərbər edən və qısa zamanda uğur qazanan rəhbərlər az olmayıb. Düşüncəm məni aldatmamışdı. Respublika bütün sahələr üzrə gerilikdən çıxdı. Respublika ardıcıl olaraq bir neçə il dövrün keçici qırmızı bayraqlarına layiq görüldü. Bəli, unudulmaz Heydər Əliyev belə insanlardan idi.

Kamil Məmmədovun Heydər Əliyev haqqında danışdığı xatirələr muzey işçilərində dərin təəssüratlar yaratdı.

Tədbirin sonunda muzey işçiləri Kamil Məmmədovla xatirə şəkli çəkdirmişlər.

Ağgül İMRANQIZI,
muzey fondlarının
baş mühafizi.